*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***11 (1) 2024***

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:28.01.2024***
***Kabul tarihi |Accepted:11.02.2024***
***Yayın tarihi |Published:25.02.2024***

**Leyli Hamidova**

*https://orcid.org/ 0009-0004-2893-2632*
*Associate Professor, Azerbaijan State University of Economics Department of "Humanities", Azerbaijan, leylihamidova1@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Hamidova, L. (2024). Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 695-706.

# Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri

***Öz***

*Azərbaycan 1991-ci ildə öz müstəqilliyini əldə etdikdən sonra Qərb ölkələri ilə faydalı əməkdaşlıq , mehriban qonşuluq və dinc yaşamaq prinsiplərini prioritet qəbul edərək beynəlxalq müstəvidə geniş fəaliyyətə başladı. Bu kontektsdə Avropa İttifaqı ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycanın iqtisadi maraqlarının təmin olunması və həmçinin siyasi müstəvidə faydalı əməkdaşlığı ehtiva edirdi. Azərbaycanın Aİ ilə əməkdaşlıqda qarşıya qoyduğu əsas məqsəd milli iqtisadiyyatın Avropanın iqtisadi məkanlarına tam inteqrasiyanı həyata keçirməkdən ibarət idi. İkitərəfli münasibətlərin inkişafında əhəmiyyətli sazişlərin bağlanması, enerji və nəqliyyat əməkdaşlığının dərinləşdirilməsi və həmçinin regional əməkdaşlığın inkişafında əhəmiyyətli addımlar atılsa da, Aİ-nin ikili standartlar mövqeyi və demokratikləşmə, insan haqları, azadlıqların etibarlı təminat mexanizmin formalaşdılrılması və s. kimi məsələlərdə Aİ-nin Azərbaycanın suveren hüquqlarına müdaxiləsi münasibətlərin istənilən səviyyədə inkişafını ləngitdi. Məqalədə Azərbaycan – Avropa İttifaqı münasibətlərinin təkamülü, ziddiyyətli məqamları, mövcud vəziyyəti və perspektivləri ələ alınmışdır.*

***Açar sözlər**: Şərq tərəfdaşlığı, Bakı təşşəbüsü, Yeni İpək yolu, Avropa Qonşuluq siyasəti, Cənubi Qaz Dəhlizi*

# Azerbaijan's relations with the European Union

***Abstract***

*After gaining independence in 1991, Azerbaijan began to work intensively at the international level, prioritizing the principles of beneficial cooperation with Western countries, friendly neighborhood and peaceful coexistence. In this context, the establishment and development of relations with the European*

*Union involved ensuring Azerbaijan's economic interests, as well as beneficial cooperation at the political level. The main goal of Azerbaijan's cooperation with the EU was to realize the full integration of the national economy into the European economic space. Although important steps have been taken in the development of bilateral relations, the signing of important agreements, deepening energy and transport cooperation, as well as the development of regional cooperation, the EU's double standards and the creation of a reliable guarantee mechanism in this regard have not been addressed. The EU's interference in Azerbaijan's sovereign rights on such issues as democratization, human rights, freedoms, etc. has slowed down the development of relations at all levels. The article discusses the development of relations between Azerbaijan and the European Union, their conflicting points, current situation and prospects.*

***Keywords:*** *Eastern Partnership, Baku initiative, New Silk Road, European Neighborhood Policy, Southern Gas Corridor*

## Giriş

Vahid Avropa Birliyi formulu, başqa adı ilə Avropa federalizmi əvvəlcə Qərbi Avropa dövlətlərini, daha sonra isə Şərqi Avropa və Baltikyanı dövlətləri öz tərkibinə qatmaqla bütün Avropanı birləşdirdi. Birlik ölkələri arasında münasibətlərin təməlində ümumi maraqlara əsaslanan federativ və konfederativ dövlət elementlərini özündə birləşdirən vətəndaş cəmiyyətinin qurulması, insan və vətəndaş hüquqlarının təmin edilməsi, ümumi sərhədlərin, vahid gömrük xidmətinin və maliyyə sisteminin yaradılması kimi məsələlər dayanır. İnteqrasiyanın Avropa modeli vahid konvensiyalar, standartlaşdırılmış qanunlar və ümumi dəyərlərlə idarə olunan iqtisadi və mədəni strategiyanın yaradılmasından ibarətdir. İttifaq inteqrasiya siyasətini nəinki Avropa məkanında, həmçinin dünya ölkələri ilə çoxsahəli əməkdaşlıq əlaqələri quraraq həyata keçirməkdədir.

Avropa İttifaqı Avropada inteqrasiya proseslərinin inkişafında maraqlı olduğu üçün Cənubi Qafqaz dövlətlərini müxtəlif proqramlar vasitəsilə İttifaqa inteqrasiya etməyə çalışırdı . İttifaq Cənubi Qafqazda demokratiya, azad bazar, insan hüquqları, sosial rifah kimi Avropa dəyərlərinin gücləndirilməsində maraqlı idi. Avropa İttifaqının Şərqə doğru genişlənməsindən sonra Cənubi Qafqaz ölkələri Asiya və Avropa arasında körpü rolu oynaması baxımından önəmli region hesab edilirdi.

### 1.Avropa İttifaqı- Azərbaycan münasibətlərinin təkamülünün əsas nəticələri

Azərbaycan Respublikası prezidentinin 23 may 2007 – ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli təhlükəsizlik Konsepsiyasında qeyd edilir ki, Azərbaycan Respublikasının strateji məqsədi Avropa və Avratlantik siyasi iqtisadi sturukturlara

inteqrasiya olunmasından ibarətdir. Azərbaycan Respublikası Avratlantik sturukturları ilə tərəfdaşlığı bütövlükdə Avratlantik məkanda ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək əsas vasitə kimi görür (Məmmədov, Vəliyev & Məmmədov, 2017). Aİ və Azərbaycan arasında qarşılıqlı münasibətlər tarixi Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra başlayır. Əlbəttə Avropa və Asiya dəhlizində yerləşən Azərbaycanın strateji mövqeyi Aİ-nin və bu quruma üzv dövlətlərin Azərbaycanla siyasi və iqtisadi münasibətlərin inkişaf etdirilməsinə marağını əhəmiyyətli dərəcədə artırmışdır.

Azərbaycan Respublikası və Aİ üzv dövlətləri arasında Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Saziş (TƏS) 22 aprel 1996-cı ildə Lüksemburqda imzalanmış və 1 iyul 1999-cu ildən qüvvəyə minmişdir (Süleymanov, 2011). Bu müqavilə 10 il müddətinə bağlanmışdır. Aİ-nin əməkdaşlıq etdiyi dövlətlərlə bağladığı müqavilələri bir neçə qrupa bölmək olar: 1) azad ticarət haqqında sazişlər; 2) assosiasiya haqqında sazişlər; 3) tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişlər; 4)xüsusi sazişlər (Zeynalova, 2022) Qeyd edək ki, Aİ - nin hər hansı üçüncü dövlətlə əməkdaşlığı həmin dövlətin inkişaf etmiş, inkişafda olan və ya az inkişaf etmiş olmasından asılı olaraq dəyişir. Bu konteksdən yanaşsaq, həmin dövrdə Azərbaycanın inkişafda olan ölkələrə aid olması amili nəzərə alınmış və tərəflər arasında münasibətlər tərəfdaşlıq əsasında qurulmuşdur. TƏS-in 1- ci maddəsi tərəfdaşlığı Azərbaycan Respublikası və Aİ arasında qarşılıqlı fəaliyyətin hüquqi forması kimi müəyyən edir. Bu tərəfdaşlığın əsas məqsədi tərəflər arasında siyasi münasibətlərin inkişafına kömək edən siyasi müzakirələrin aparılması, Azərbaycanda demokratiyanın möhkəmləndirilməsi, iqtisadiyyatın inkişafı və bazar iqtisadiyyatına keçidin yekunlaşdırılması üzrə Azərbaycan Respublikasının səylərinin dəstəklənməsindən, iqtisadi, sosial, maliyyə və mədəni sahələrdə əməkdaşlığın yaradılmasını həyata keçirməkdən ibarətdir.

Aİ və Azərbaycan arasında TƏS II bölməsi tərəflər arasında siyasi dialoq məsələlərindən bəhs edir. Tərəflərarası əməkdaşlığın inkişafı baxımından bu bənd çox böyük əhəmiyyət kəsb edir. İqtisadi – ticarət əməkdaşlığının aparılması TƏS – in III bölməsində yer alır. Burada Aİ və Azərbaycan arasında ticarət dövriyyəsinin ümumi prinsipləri müəyyən edilir. TƏS çərçivəsində Azərbaycan tədricən öz qanunvericiliyini Aİ qanun- vericiliyinə uyğunlaşdırmaq siyasəti aparır. Mülki hüquq, Kommersiya hüququ, beynəlxalq siyasi hüquq və bütövlükdə hüquq sisteminin bütün sahələrininin uyğunlaşdırılması istiqamətində tədbirlər hədəflənir.

Azərbaycanın Aİ ilə əlaqələri əsasən TACİS,TRACEKA, INOQATE, ECNO, ERASMUS, MUNDUS, TEMPUS proqramları çərçivəsində həyata keçirilir. Bu proqramlar içərisində TACİS proqramı xüsusilə fərqlənir. TASİS-in əsas istiqaməti Aİ və MDB ölkələri (Monqolustana da şamil

edilirdi) arasında siyasi və iqtisadi əlaqələrin inkişafına yardım göstərilməsini təmin etməkdən ibarətdir. Aİ bu proqram çərçivəsində müvafiq texniki və ekspert yardımı göstərməklə Azərbaycanda aparılan islahatları dəstəkləyir. Özəlliklə əsas diqqət infrasturuktur, xüsusi sektor və insan resurslarının inkişafına verilir. Bu istiqamətlər üzrə proqram bir sıra layihələrə maliyyə və texniki yardım göstərir. Xüsusilə gömrük və vergi sisteminin təkmilləşdirilməsi, dövlət idarəçiliyi, demokratiya və insan hüquqları sahəsində islahatların davam etdirilməsi, ekologiya və ətraf mühitin davamlı inkişafının təmin olunması, pensiya sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması kimi məsələlər yer alır. 2007- ci ildən TACİS proqramı Avropa Qonşuluq və Tərəfdaşlıq proqramı ilə əvəz olunmuşdur (Zeynalova, 2022).

Azərbaycanın əməkdaşlıq etdiyi Aİ proqramlarından biri TRACECA proqramıdır. “Yeni İpək Yolu” adlandırılan TRACECA Mərkəzi Asiya, Qafqaz və Avropa arasında nəqliyyat əlaqələrinin inkişafını hədəfləyən proqramdır. Proqramın məqsədi dövlətlərin siyasi və iqtisadi müstəqilliyini dəstəkləməklə onların avtomobil yolu, dəmir yolu və dəniz yolu vasitəsilə Avropa və dünya bazarına çıxışını genişləndirmək və Avropadan Qara Dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya və əks istiqamətdə ən tez və ən ucuz nəqliyyat dəhlizinin yaradılmasından ibarətdir. TRACECA çərçivəsində aparılan əməkdaşlıq 1998- ci il sentyabrın 8- də Bakıda “TRACECA – Tarixi İpək Yolun Bərpası” konfransı ilə daha da möhkəmləndirildi (Həmidov, 2012). Burada “Avropa-Qafqaz-Asiya” dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş imzalanmışdır. Bu müqavilə çərçivəsində beynəlxalq dəmir və avtomobil nəqliyyatı , beynəlxalq ticarət gəmiçiliyi, gömrük prosedurları və sənədlərin işlənməsi üzrə Texniki Əlavələr adlı sənəd də razılaşdırılmışdır. Bu razılaşma Avropa, Qara Dəniz, Qafqaz regionlarında, Xəzər dənizi hövzəsində və Asiyada ticarət, iqtisadi və nəqliyyat əlaqələrinin tənzimlənməsində mühüm rol oynayaraq TRACECA proqramının əsas sənədi kimi çıxış edir.Bu layihə çərçivəsində Azərbaycan 25 texniki və 11 investisiya layihələrinin həyata keçirilməsinə öz yardımını göstərir. Onlardan 26- da Azərbaycanın payı 100 mln . avrodan artıqdır (Zeynalova, 2022).

Azərbaycan – Aİ əməkdaşlığın digər bir istiqaməti də INOGATE proqramı ilə tənzimlənir. Avropa İttifaqının yeni müstəqil dövlətlərinə siyasi və iqtisadi dəstəyi çərçivəsində həyata keçirilən proqram Avropaya neftin və qazın dövlətlərarası nəql edilməsi üçün mexanizmin yaradılmasını hədəfləyir.2004- cü ildə Bakıda keçirilmiş Nazirlər konfransında “Bakı təşəbbüsü” adlanan sənəd əsasən üzv dövlətlərin (21 ölkə bu proqramda iştirak edir) enerji bazalarının Aİ ilə inteqrasiyasının güclənməsinə xidmət edir (Avropa İttifaqının INOGATE proqramı 2020). Avropa

İttifaqı ilə əməkdaşlığın inkişafında 2003-ildən başlanmış Avropa Qonşuluq siyasəti proqramı xüsusilə əhəmiyyət kəsb edir. Bu proqram Şərqi Avropa və postsovet ölkələri üçün nəzərdə tutulan Aİ-nin sərhədlərində təhlükəsizlik zonasının yaradılması ideyasını özündə əks etdirir. Avropa Komissiyası tərəfindən 2004 – cü ildə qəbul edilmiş “Avropa qonşuluq siyasəti. Ölkələr üzrə Strategiya və Məruzələr” adlı sənəd qonşu ölkələrlə siyasət, təhlükəsizlik, iqtisadiyyat və mədəniyyət sahəsində əməkdaşlıq münasibətlərinin yaradılmasını hədəfləyirdi (Zeynalova, 2022). Həmçinin sənəddə Aİ və Azərbaycanın qarşılıqlı əməkdaşlığının əsas məqsədi əməkdaşlığın üstün səviyyəsi, yəni iqtisadi sahədə tədricən inteqrasiyaya və həmçinin daha dərin siyasi əməkdaşlığa aparan sıx münasibətlərin inkişafından bəhs olunur. Avropa Qonşuluq Siyasəti “Fəaliyyət Plan”ın həyata keçirilməsi üçün əsas maliyyə aləti qismində Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) çıxış edir. Avropa İttifaqı bu proqram çərçivəsində Azərbaycanla iqtisadi layihələrin reallaşdırılması üçün 225 mln avro ayırmışdır (Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı yeni mərhələyə qədəm qoyur, http://anl.az/down/meqale/azerbaycan/azerbaycan.htm). Həmçinin Azərbaycanda müasir standartlaşdırma və texniki tənzimlənmə sisteminin gücləndirilməsinə dəstək adlı tvinnunq Azərbaycan Respublikasında dövlət qulluğunda Avropa İttifaqı məsələlərinə aid təlim sisteminə dəstək və Aİ məsələləri üzrə Birlik mərkəzinin yaradılması, Azərbaycanda uşaqlar üçün ədliyyəyə çıxış mexanizmlərinin dəstəklənməsi, Azərbaycanın kənd yerlərində mikro və kiçik müəssisələrinin (MKM) maliyyə vəsaiti ilə təmin olunması məqsədilə Access Banka 20 milyon ABŞ məbləğində kreditin verilməsi, Kənd turizminə dəstək, Milli şəffaflıq sisteminin qiymətləndirilməsi , Qadın gücünə güc, Gender bərabərliyinin və qadın hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi və s. layihələr həyata keçiril- məkdədir (Məmmədov, Vəliyev & Məmmədov, 2017). Aİ - nin Avropa Qonşuluq Siyasətindən sonra həyata keçirilən “Şərq tərəfdaşlığı” layihəsi də böyük əhəmiyyətə malikdir. 2008- ci ildə təsdiqlənmiş bu layihəyə əsasən 6 dövlət - Azərbaycan, Gürcüstan, Ukrayna, Belarusiya, Moldova və Ermənistanla inteqrasiya prosesinin inkişafı nəzərdə tutulurdu (Məmmədov, Vəliyev & Məmmədov, 2017). 2013- cü ildə bu proqram çərçivəsində Aİ - Azərbaycan arasında viza rejiminin sadələşdirilməsi haqqında Saziş imzalanmışdır. Bundan əlavə, Çeviklik üzrə Tərəfdaşlıq haqqında sənəd və 2014-cü ildə readmissiya Sazişi imzalanmışdır (Zeynalova, 2022). Şərq tərəfdaşlığı çərçivəsində Azərbaycan üçün mühüm qərarlardan biri 2017- ci il noyabr ayında qəbul edildi. Sənəddə Aİ-nin Xarici Siyasət və Təhlükəsizlik Qlobal Strategiyasına əsasən Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bir daha dəstəklənirdi.

Azərbaycan-Aİ əlaqələrinin iqtisadi istiqamətində inkişafı 2006-cı ildə bağlanmış "Avropa İttifaqı və Azərbaycan Respublikası arasında energetika sahəsində strateji tərəfdaşlıq üzrə qarşılıqlı anlaşma haqqında Memorandum" la davam etmişdir. Enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi hər iki tərəf üçün böyük əhəmiyyətə malik idi. Belə ki, Azərbaycan özünün Aİ-yə sabit ixracın aparılmasını, Avropa İttifaqı da öz idxalatının şaxələndirməsini təmin etməyi qarşıya məqsəd qoymuşdur. Bu memorandumla Azərbaycanın Aİ-yə qaz tədarükü demək olar ki, çox faydalı və etibarlı istehlakçı olan bir tərəfdaşla uzunmüddətli iqtisadi əməkdaşlığın yaradılmasına şərait yaradır. Həmçinin bu sənədin reallaşması Azərbaycanın Aİ- nin enerji bazarına daha geniş şəkildə inteqrasiya olunmasına tövhə verəcəkdir (Məmmədov, Vəliyev & Məmmədov, 2017).

Aİ-Azərbaycan arasında iqtisadi əlaqələrinin inkişafı istiqamətində əhəmiyyətli sənədlərdən biri 2011- ci ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə Avropa Komissiyasının sədri M. Barrozu arasında bağlanmış Cənubi Qafqaz qaz dəhlizi üzrə energetika sahəsində strateji tərəfdaşlıq haqqında birgə bəyannamədir (Zeynalova, 2022). Yeni layihənin reallaşdılırlması istiqamətində Azərbaycan 2012- ci ildə Türkiyə ilə Transanadolu boru kəməri üzrə Sazişə imza atdı (Başqa adı ilə TANAP) Bir il sonra isə Transadriatik boru kəməri üzrə yeni müqavilə imzalandı. Həmçinin həmin ildə "Şahdəniz II" konsorsiumun üzvləri Yekun investisiya qərarını qəbul etdilər. Bağlanmış sazişin şərtlərinə əsasən ikinci mərhələdə qazın Aİ ölkələrinə həm də Cənubi Qafqaz qaz dəhlizinə daxil olan TANAP və TAP qaz boru kəmərləri vasitəsilə göndərilməsi razılaşdılmışdı. Energetika üzrə Avropa komissarı Q. Ettinqerin "Cənubi qaz dəhlizi" layihəsinin potensialını çox yüksək qiymətləndirərək bildirirdi ki, bu layihə gələcəkdə Aİ-nin qaza ümumi ehtiyacının 20% - ni təmin edəcək (Zeynalova, 2022). Qeyd edək ki, TAP boru kəməri TANAP boru kəmərinin davamıdır. Bu layihə ilə Avropaya ildə 10 mlrd. kubmetr qazın nəql edilməsi nəzərdə tutulurdu. Son dövrlərdə Aİ – dən Azərbaycana ixracat 20% - dən çox artmış, Azərbaycandan isə ixracatın təxminən 50% Aİ- nin payına düşür (Zeynalova, 2022).

Rusiya – Ukrayna müharibəsindən sonra Azərbaycana Avropa İttifaqının marağının artması artıq müşahidə edilməkdədir. 2022- ci lin iyul ayında Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen Azərbaycana rəsmi səfəri çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Anlaşma Memorandumu imzalandı. Yeni saziş Azərbaycandan Trans-Adriatik kəməri (TAP) vasitəsi ilə idxal edilən qazın illik həcminin 5 il ərzində - 2027-ci ilədək 2 dəfəyədək artırılmasını nəzərdə tutur (Azərbaycan–Avropa İttifaqı münasibətləri 18 iyul 2022). Həmçinin Ursula von der Leyen Azərbaycanı enerji sahəsində "etibarlı tərəfdaş" adlandırması da ikitərəfli

münasibətlərin inkişafı baxımından böyük önəm daşıyır.(17) Müqavilədə yer alan əsas məsələlərdən biri Cənub Qaz Dəhlizi çərçivəsində Avropaya daşınan mavi yanacağın illik həcminın 20 milyard kub metrə çatdırılmasıdır (Azərbaycan–Avropa İttifaqı münasibətləri 18 iyul 2022). Bu yaxınlaşma ona dəlalət edir ki, Azərbaycan –Aİ arasında inteqrasiya proseslərin daha da dərinləşməsi imkanı mövcuddur.

**2.Azərbaycan niyə Avropa İttifaqının assosiasiya haqqında sazişini imzalamadı**

Əslində Aİ tərəfindən tərtib edilən "Şərq Tərəfdaşlığı" proqramı ilk olaraq assosiativ münasibətlərin qurulması və assosasiya haqqında müvafiq sazişin bağlanması əsasında Aİ və Azərbaycan arasında inteqrasiyanın son məqsəd kimi nəzərdə tutulurdu. Aİ-nin üçüncü dövlətlərlə bağladığı sazişlər "assosasiya" ,"əməkdaşlıq" , "sabitləşmə" və s. kimi növlərə bölünür və burada hədəf tam üzvlük deyil, yalnız qarşılıqlı əməkdaşlığın sonrakı inkişafın istiqamətlərini müəyyən edir. Belə ki, Aİ- yə üzv ölkələrin xarici işlər nazirlərinin 14 sentyabr 2010 – cu il görüşündə Azərbaycanla ikitərəfli assosiasiya haqqında sazişin imzalanması məqsədilə Avropa Komissiyasına müvafiq danışıqların aparılması səlahiyyəti verilmişdir. Aİ Azərbaycanla assosiasiya haqqında sazişin bağlanmasına dair rəsmi danışıqları 16 iyul 2010- cu ildə başladı. Aİ-nin assosiasiya sazişləri əsasən aşağıdakı məsələləri əhatə edir :1) siyasi dialoq və xarici siyasət; 2) ədalət məhkəməsi, azadlıq və təhlükəsizlik; 3)iqtisadi və digər sahələr üzrə əməkdaşlıq; 4) hərtərəfli və dərin azad ticarət zonasının yaradılması (Zeynalova, 2022). Qeyd edək ki, geniş ticarət zonası (DOFTA) təkcə gömrük problemlərinin və ticarət kvotalarının aradan qaldırılmasını əsas hədəf hesab etsə də, əslində DOFTA həmçinin Avropa İttifaqı ilə əməkdaşlıq edən ölkələrin qanunvericiliyinin onun standartları və normaları ilə yaxınlaşdırılmasını da tələb edir. Yəni assosiasiya müqaviləsi Avropa İttifaqının üzvü olmayan dövlətin Birliyin üzvü olan dövlətlə bağladığı sazişdir. Məsələn Avropa İttifaqı "Şərq tərəfdaşlığı" proqramı çərçi- vəsində əməkdaşlıq etdiyi ölkələrdən Gürcüstan, Ukrayna və Moldova ilə assosiasiya haqqında müqaviləni imzalamışdır. Qeyd edək ki, bu dövlətlər Ümumdünya Ticarət təşkilatının (ÜTT) üzvüdür. İttifaq Azərabaycana da tərəflər arasında azad ticarət zonasının yaradılmasını təklif etmişdi. Lakin azad ticarət zonasının yaradılması üçün hər bir dövlətin ÜTT – yə üzv olması mütləqdir. Azərbaycan 2002 – ci ildən bu istiqamətdə fəaliyyətə başlamış və 2006- cı ildə 20- ə yaxın qanun və normativ aktlar qəbul edilmişdir (Zeynalova, 2022). Lakin son dövrlərdə dəyişən beynəlxalq vəziyyət artıq Azərbaycanın Aİ ilə əməkdaşlığında assosiasiya sazişinin bağlanmasında maraqlı tərəf olmadığını göstərdi. Azərbaycan prezidenti İ. Əliyevin 12 yanvar 2022 – ci ildə verdiyi bəyanatda bu məsələ ilə bağlı Azərbaycanın mövqeyi aydın ifadə edilirdi:" Bizim üçün əsas məsələ, Avropa İttifaqı ilə

gələcək planlarımızı düzgün tərtib etmək idi. Mən bunu dəfələrlə keçmiş rəhbərliklə görüşlər əsnasında dilə gətirmişdim. Deyirdim ki, bilirsiniz, bizim hər hansı bir xüsusi gözləntilərimiz yoxdur. Bildiyiniz kimi, biz assosiasiya sazişinə qoşulmadıq. Bu gün həyat göstərir ki, haqlı idik. Çünki qoşulan o biri ölkələr haqqında mən indi bir şey demək istəmirəm. Əgər biz real baxsaq bu assosiasiya sazişi nə verdi?! Əlbəttə ki, sual doğurur. Yəni, üzvlük perspektivi varmı? Yoxdur. Yəni, yaxın gələcəkdə və orta müddətli gələcəkdə yoxdur. Hansısa başqa imtiyazlar varmı? Bilmirəm. Hər halda yenə də deyirəm. Bizim mövqeyimiz həmişə realist olub. Deyirdim ki, biz gərək həyata keçirə bilmədiyimiz şeylərin, necə deyərlər, ətəyindən yapışmayaq. Real. Biz istəyirik ki, Avropa ilə daha yaxın əlaqələr olsun. Avropa da istəyir ki, onun sərhədlərində vəziyyət sabit olsu. Ümid edirəm, bu müştərək yanaşma imkan verəcək ki, tezliklə yeni sazişi də tamamilə razılaşdırılacaqdır. Çünki hazırda sazişin təqribən 90-92 faizi razılaşdırılıb. Bir neçə maddə var ki, orada fikir ayrılığı var. Amma hesab edirəm ki, ciddi iradə göstərilərsə, hər iki tərəfdən buna biz nail ola bilərik." (İlham Əliyevin televiziya kanallarına müsahibəsi https://president.az/az/articles/view/55243 B. 12 yanvar 2022).

### 3.Avropa İttifaqı - Azərbaycan münasibətlərinə Avropa parlamentinin ziddiyyətli təsiri

Aİ-Azərbaycan arasında yeni sazişin imzalanması məsələsində Avropa parlamentinin Azərbaycana göstərdiyi münasibət ciddi əhəmiyyət kəsb edir. Belə ki, 20- ci il iyulun 4-də Avropa Parlamenti Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üçün şərtlər siyahısını qəbul edərək gələcək sazişin əsas başlıqlarını qeyd etmişdi. Burada insan hüquq və azadlıqlarının təmin edilməsi, korrupsiya, pulların yuyulması və vergidən yayınmaya qarşı mübarizəni nəzərdə tutan məsələlər yer alırdı. Həmçinin Avropa parlamenti Aİ əsas dəyərlərinə və hüquqlara hörmətin təmin edilməsini Aİ və Azərbaycan arasında münasibətlərin dərinləşməsi şərtlərindən biri olduğunu ifadə edirdi. Əsasən aşağıdakı məsələlər yer alırdı:

-Bağlanması hədəflənən sazişin sadəcə şirkətlərə deyil, Azərbaycan ərazisində yaşayan bütün vətəndaşlar üçün səmərəli olması;

-Avropa İttifaqının təməl dəyərləri olan insan haqları, demokratiya və qanunun aliliyi prinsiplərinin ölkə ərazisində tətbiqinin təmin edilməsi;

-Müqavilə bağlanana qədər Azərbaycan ərazisində olan siyasi məhbusların buraxılmasının vacibliyi;

- Azərbaycanda Avropa İttifaqının təməl prinsiplərinin tətbiqi və toplaşma azadlığının təmin edilməsi üçün Birliyin yardım siyasətinin tətbiqi;

- Azərbaycanda məhkəmə sisteminin müstəqil fəaliyyəti üçün tətbiq edilən islahatların dəstəklənməsi;

-Vergidən yayınmaya qarşı kompleks tədbirlərin aparılması: (Azərbaycan- Avropa İttifaqı https://azerbaijan.az/related-information/193).

Avropa Parlamentinin Azərbaycanın əleyhinə qəbul etdiyi qətnamələrindən biri 2021- ci ilin mayın 20 - də verilmişdir. "Ermənistan və Azərbaycan arasında sonuncu münaqişədən sonra hərbi əsirlər" adlanan sənəddə nə zaman və hansı şəraitdə həbs olunmasından asılı olmayaraq bütün erməni hərbçilərinin azad olunması, guya Ermənistanın suveren torpaqlarına daxil olmuş Azərbaycan hərbçilərinin geri çəkilməsi, əsirlikdə olan ermənilərlə beynəlxalq qanunlara uyğun davranılması, Qarabağ ərazisində erməni əsilli insanların təhlükəsizliyinin təmin olunması kimi tələblər yer alırdı.

Uzun illər ərzində həm Ermənistan, həm də işğal olunmuş Azərbaycan ərazilərində xalqımıza məxsus bütün tarixi-mədəni abidələrin Ermənistan tərəfindən vəhşicəsinə dağıdılması və yer üzündən silinməsi, Xocalı, Başlıbel və Ağdaban soyqırımları, 30 il ərzində Azərbaycan tərəfindən dövlət və parlament səviyyələrində, eləcə də vətəndaş cəmiyyətləri tərəfindən qaldırılan məsələlər Avropa Parlamentində dəstək qazana bilməmişdi. Qarabağ ərazisində onlarla məscidin tamamilə məhv edilməsi, mədəniyyət tikililərinin, məktəblərin, muzeylərin yer üzündən silinməsi AP üzvlərini Azərbaycan tarixi-mədəni irsinin qorunması üçün hər hansı bir addım atmağa sövq edə bilməmişdi. AP üzvlərinin yalan məlumatlar əsasında Azərbaycana qarşı irəli sürülən erməni iddialarını belə asanlıqla dəstəkləməsi çoxsaylı suallar yaradır. Azərbaycana münasibətdə AP-nin qəbul etdiyi qərar və qətnamələrin Aİ-nın özünün izlədiyi beynəlxalq və regional siyasətlə daban-dabana ziddiyyət təşkil etdiyi də göz qabağındadır.

Avropa Parlamentinin 2023- cü il yanarın 19 – da qəbul etdiyi ədalətsiz qətnamə II Qarabağ müharibəsindən sonra silsilə şəklində yürüdülən anti azərbaycan kompaniyasının növbəti həmləsi oldu. Sənəddə guya Qarabağın dağlıq hissəsinin Azərbaycan tərəfindən blokadaya alınması və Laçın dəhlizində hərəkətə məhdudiyyətlərin qoyulması faktları yer alır. Əslində qətnamədə iddia edilən 20 mindən bir qədər çox olan erməni milliyyətli vətəndaşların blokadaya alınması və Laçın dəhlizindən "Qırmızı Xaç" komitəsinin nümayəndələrinin, Qarabağda yaşayan ermənilərin, xəstə və uşaqların keçidinə heç bir məhdudiyyət qoyulmamışdır (Avropa Parlamentinin 2023 19 yanvar tarixi qətnaməsi ilə.. https://www.meclis.gov.az/news.php?id=4547&lang=az). Qeyd edək ki,

Avropa Parlamentinin Azərbaycana qarşı göstərdiyi bu ikili standartlara baxmayaraq Avropa rəsmilərinin verdiyi bəyanatlarda münasibətlərin inkişafı ilə bağlı müsbət çağırışlar da yer almaqdadır. Məsələn Parlamentin Azərbaycan üzrə məruzəçisi Norika Nikolay :

*"Aİ Azərbaycanın əsas ticarət tərəfdaşıdır, Azərbaycan isə Aİ-nin energetika üzrə strateji tərəfdaşıdır. Hərtərəfli saziş ilə münasibətlərimizin çərçivəsini yeniləməyin vaxtı çatıb. Ümid edirəm ki, demokratik standartlardan tutmuş danışıqların başa çatmasına qədər lazımi irəliləyişin əldə olunması üçün birgə fəaliyyət göstərə biləcəyik"* deyə öz açıqlamasında bildirmişdi (Avropa Parlamenti Azərbaycan qarşısında şərt qoydu 2018, https://arqument.az/az/avropa-parlamenti-azerbaycann-qarssna-sert-qoydu/). Avropa Komissiyasının sədri Ursula von der Leyen də Bakıda olarkən münasibətlərin davamlı və dərininə inkişafı ilə bağlı suala açıqlıq gətirərkən:

*‘’Avropa və Azərbaycan xalqının bir-birinə yaxınlaşması, eləcə də ölkənin investisiya etimadını artırmaq üçün vətəndaş cəmiyyətinin və medya azadlığının yüksəldilməsi mühüm amildir”* (Usula von der Leyen Bakıda.., https://www.bbc.com/azeri/azerbaijan-61979520). deyə demokratik islahatların vacibliyini bir daha ifadə edirdi.

### 4.Avropa İttifaqı - Azərbaycan münasibətlərinin perspektivləri

Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin tarixini, inkişaf istiqamətlərini, templərini və müasir vəziyyətini təhlil edərkən belə bir nəticəyə gəlmək olar ki, əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşdirilməsi müxtəlif yollarla mümkündür. Azərbaycan və Avropa İttifaqı qarşılıqlı münasibətlərin təzələnməsi və yeni reallıqlar əsasında qurulması, yəni yeni tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin bağlanması və tərəflər arasında mövcud olan TƏS əlavə protokolun imzalanması və ya modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında yeni sazişin imzalanması şəklində ola bilər. Belə ki, “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində əməkdaşlığın əsas istiqamətləri azad ticarət zonasının yaradılması və bu ölkələrin vətəndaşlarına aid viza rejiminin tədricən liberallaşdırılması və həmçinin energetika sahəsində qarşılıqlı fəaliyyət göstərilməsi hədəflənir. Lakin Aİ ilə azad zonanın yaradılması üçün həmin ölkənin Ümumdünya Ticarət Təşkilatına üzv olması şərti mövcuddur. Qeyd edək ki, Azərbaycan bu quruma daxil olmaq üçün hal- hazırda gərgin iş aparır.

2020 - ci ildə Ermənistan - Azərbaycan arasında baş vermiş II Qarabağ müharibəsindən sonra əlbəttə Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri də yeni mərhələyə qədəm qoydu. Bölgədə bütün kommunikasiyaların açılmasının, Ermənistan və Azərbaycan ərazisindən keçməklə həm bu iki ölkə, həm də bütün bölgə ölkələri, eləcə də Azərbaycanın tərəfdaşlarının xeyrinə ticarət

və nəqliyyat daşımalarının artmasına əhəmiyyətli dərəcədə təsir göstərəcəyi, bu xüsusda Zəngəzur dəhlizinin Şərq-Qərb nəqliyyat dəhlizinin önəmli tərkib hissəsi kimi Aİ-nin Şərq Tərəfdaşlığı çərçivəsində və ondan kənarda etibarlı və təhlükəsiz logistik dəhlizləri təmin etmək səylərinə töhfə verə bilər.

Azərbaycan Avropa İttifaqı münasibətlərinin perspektiv istiqamətlərindən birini Avropa İttifaqı ölkələri ilə strateji formatda ikitərəfli münasibətlərin inkişaf etdirilməsi təşkil edir. Hal hazırda Azərbaycan Avropa İttifaqının 9 ölkəsi ilə strateji tərəfdaşdır. Bu da Avropa İttifaqına üzv ölkələrin üçdəbirini təşkil edir (Altıncı çağırış azərbaycan Respublikası Milli Məclisinin ilk iclası.., https://president.az/az/articles/view/36124).

**Netice**

Azərbaycan Aİ ilə artıq assosiasiya müqaviləsinin bağlanmasına böyük diqqət göstərmir, onun əvəzinə tərəfdaşlıq və əməkdaşlıq haqqında yeni müqavilənin bağlanması ideyasına tərəfdardır və bu istiqamətdə ciddi səy göstərir. Belə ki, Azərbaycan Aİ-yə "Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında Saziş" adlanan yeni müqavilə bağlamağı təklif etmişdir. Əslində bu sazişin bağlanması ilə bağlı danışıqlar 2017- ci ildən başlanmışdır. Əlbəttə bu sazişdə Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyinin qorunması, milli mənəvi dəyərlərə hörmət prinsiplərinə zidd olan müddüalar yer almamalıdır. 2022 – ci ildə prezident İlham Əliyevin Avropa İttifaqı ilə münasibətlərinin perspektivlərinə dair verdiyi açıqlamda bildirirdi ki:" Biz indi Avropa İttifaqı ilə yeni sazişimiz üzərində bəzi məsələlərin razılaşdırılmasının son mərhələsindəyik. Bu razılaşmanın 90 faizdən çox hissəsi bizim və Avropa İttifaqının dəyərləndirilməsinə görə hazırdır. Yəni razılaşma çox hərtəflidir. II Qarabağ müharibəsindən sonra reallıqları əks etdirir." Aprelin 29-da ADA Universitetində " (Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib, https://president.az/az/articles/view/55909). Beləliklə Azərbaycan - Avropa İttifaqı münasibətləri mürrəkkəb geosiyasi şəraitdə tamamilə yeni mərhələyə qədəm qoydu. Son dövrdə ikitərəfli münasibətlərin qurulmasından bu günə qədər geçən müddət ərzində əməkdaşlığın inkişafı ən ciddi böhran fazasına daxil olmuşdur. Avropa İttifaqı vitze – prezidenti Cozep Borellinin Azərbaycanı Ermənistana qarşı "ərazi iddiaları" ilə günahlandırması nəinki Azərbaycan - Aİ əlaqələrinin əhəmiyyətli şəkildə zədələnməsinə, həmçinin Azərbyacan - Ermənistan arasında normallaşma prosesinə də mənfi təsir göstərməkdədir. Hətta Avropa İttifaqı rəsmilərinin mövqeyi təşkilatın təməl prinsipləri ilə ziddiyyət təşkil edir. Münasibətlərin gələcəyi yalnız İttifaqın Azərbaycana

qarşı mövqeyinin dəyişməsi nəticəsində hədəflənən yeni sazişin imzalanması və qarşılıqlı əməkdaşlığın dərinləşməsi prosesində müstəsna rol oynaya bilər.

**Ədəbiyyat**

Altıncı çağırış azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib, 10 mart 2020, https://president.az/az/articles/view/36124

Avropa Parlamentinin 2023 19 yanvar tarixi qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin bəyanatı 19 yanvar 2023, https://www.meclis.gov.az/news.php?id=4547&lang=az

Avropa Parlamenti Azərbaycan qarşısında şərt qoydu 2018, https://arqument.az/az/avropa-parlamenti-azerbaycann-qarssna-sert-qoydu/

Avropa İttifaqının INOGATE proqramı 2020, https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/avropa-ittifaqinin-inogate-proqrami

Azərbaycan–Avropa İttifaqı münasibətləri 18 iyul 2022 https://brussels.mfa.gov.az/az/content/38/azerbaycan-avropa-ittifaqi

Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı yeni mərhələyə qədəm qoyur, http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/77395.htm

Azərbaycan- Avropa İttifaqı, https://azerbaijan.az/related-information/193

Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq ADA univeristetində keçirilən beynəlxalq konfrans, 29 aprel 2022, https://president.az/az/articles/view/55909

Həmidov, H. (2012). *İpək yolu və Azərbaycanın strateji maraqları: tarix və müasirlik* [Dis. Avtoreferatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası]. aak.gov.az.

Məmmədov, F., Vəliyev, C., & Məmmədov, A. (2017). Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). *Məqalələr toplusu. Poliart MMC.*

Süleymanov, E. (2011). *Avropa İttifaqı və Azərbaycan: strateji tərəfdaşlığa doğru*. (elmi red. R. Sevdimalıyev). B.: [s.n.],.- 112 s., [2] v.

Zeynalova, Ş. (2022). *Avropa İttifaqında inteqrasiya proseslərinin xüsusiyyətləri: problemlər və perspektivlər* [Dissertasiya, Xəzər Universiteti]. aak.gov.az.

Usula von der Leyen Bakıda: Avropa Azərbaycanı etibarlı tərəfdaş hesab edir, 18 iyul 2022, https://www.bbc.com/azeri/azerbaijan-61979520